# ALLAHVERDİYEV BƏXTİYAR ƏZİZULLA OĞLU



Bəxtiyar Allahverdiyev 1974-cü ilin iyun ayının 10-da Bakı şəhərində anadan olmuşdur. 1991-ci ildə Bakı şəhərində yerləşən 199 saylı orta ümumtəhsil məktəbini bitirimişdir. Həmin ilin avqust ayında Rusiya Fedarasiyasında yerləşən Ali Hərbi məktəbə qəbul olunmuşdur. Azərbaycanda baş verən hadisələrə biganə qalmayaraq təhsilini yarıda buraxıb 1992-ci ildə vətənə dönərək N saylı saylı hərbi hissədə əsgəri xidmətə başlamış və tez bir zamanda hərbi hissədə komandirlərin və şəxsi heyətin hörmətini qazanmışdır. O, 1992-ci ilin oktyabr ayından etibarən hərbi hissə tərkibində Qarabağ uğrunda gedən döyüşlərə qatılaraq Qubadlı, Füzuli, Ağdərə, Tərtər döyüş bölgələrində gedən döyüşlərdə iştirak etmiş və eləcə də hərbi hissə Komandirinin verdiyi xüsusi döyüş tapşırıqlarını kəşfiyyat qruplarının tərkibində olmaqla layiqincə yerinə yetirmişdir. 1994-cü ilin fevral ayında hərbi hissə Komandirinin təqdimatına əsasən döyüşlərdə xüsusi bacarıqlarına görə fərqlənən bir qrup çavuşun həqiqi hərbi xidmətdən müddətdən artıq xidmətə keçirilərkən Bəxtiyar Allahverdiyevdə həmin çavuşlardan biri olmuşdur. 1995-ci ildə Müdafiə Nazirinin əmrinə əsasən bir qrup hərbçi o cümlədən də gizir rütbəsində B.Allahverdiyev hərbi biliyini artırmaq və hərbi ixtisasa malik olmaları üçün Türkiyə Respublikasına göndərilmişdirlər. 1997-ci ildə o, Jandarma Komando ixtisas kursunu müvəffəqiyyətlə başa vurub, doğma vətəninə qayıtmışdır. Həmin ilin aprel ayında isə N saylı hərbi hissənin kəşfiyyat taqımına tağım komandiri təyin olunmuşdur. B.Allahverdiyev 1997-ci ildən 1998-ci ilədək xüsusi təyinatlı kəşfiyyat tağımının komandiri, 1998-99-cu illərdə təminat taqımının komandiri, 1999-2000-ci illərdə isə Bakı Ali Komandirlər Məktəbində taktika kafedrasının təlimatçısı vəzifələrində xidmət etmiş və 2000-ci ilin oktyabr ayında ordudan gizir rütbəsində öz xahişi ilə təxris olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Allahverdiyev Bəxtiyar Əzizulla oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Hərbi xidmətdən təxris olunmasına baxmayaq, dövlətə və vətənə xidməti davam etdirmək məqsədi ilə Bəxtiyar Allahverdiyev 2001-ci ildə Daxili İşlər Orqanlarına işə qəbul edilmiş və polis nəfəri kimi xidmətə başlamışdır. 2002-ci ildə AR DİN-nin Polis Akademiyasının qiyabi şöbəsinə daxil olmuş və 2007-ci ildə təhsilini başa vurmuşdur. Qiyabi təhsil aldığı müddətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirinin əmrinə əsasən polis kiçik leytenantı rütbəsi alaraq  2004-cü ildə İsmayıllı rayonu Polis Şöbəsinə polis sahə  inspektoru vəzifəsinə təyin edilmişdir. 2006-cı il tarixdən xidmət üzrə iş yeri Bakı şəhərinə dəyişdirilmiş, sonuncu dəfə isə Bakı Şəhər BPİ-yə bilavasitə tabe olan DYPİ-də xidmət etmişdir. 2015-ci ilin may ayında isə öz istəyi ilə DİO-dan polis  mayoru rütbəsində təqaüdə göndərilmişdir. Ailəlidir.